# Bəstəkarla musiqili görüş





***❒ Azərbaycan Milli Konservatoriyası nəzdində Musiqi Kollecinin zalında qələbəlik idi. Müəllim və tələbə heyəti həyəcan və böyük sevinclə Asəf Zeynallı adına Musiqi Texnikumunun məzunu, Prezident təqaüdçüsü tanınmış bəstəkar, Əməkdar incəsənət xadimi, Xalq artisti, professor Faiq Sücəddinovu qarşılayırdı. Oxuduğu musiqi ocağına əlli il sonra ayaq basmaq və kollektivlə görüşmək hər kəsdə kövrək anlar yaşatmışdı.***

Kollecin direktoru Nazim Kazımov tanınmış bəstəkarı kollecdə görməkdən məmnun olduğunu bildirdi və tələbəlik illəri dövründə bu musiqi ocağında təhsil aldığı xoş xatirələrdən danışdı. Qeyd etdi ki, hələ tələbəlik illərindən seçilən Faiq Sücəddinov fortepiano şöbəsində təhsil alıb. Azərbaycan Dövlət Radio və Televiziya Komitəsinin Estrada Orkestrinin rəhbəri Tofiq Əhmədovun dəvətilə orkestrdə çalışmağa başlayıb. Onun əsərləri təkcə ölkəmizdə deyil, türk dünyasında da tanınır və sevilir.

Kollecin kollektivi ilə görüşməkdən şad olduğunu bildirən bəstəkar Faiq Sücəddinov xoş sözlərə görə kollec rəhbərinə təşəkkür etdi. Bildirdi ki, qocaman təhsil ocağı yarandığı gündən istedadlı tələbələrin yetişməsində mühüm rol oynayıb və bu gün kollecin tələbə və məzunlarının səsi-sorağı müxtəlif ölkələrdən gəlir: “Bu məktəb mənim üçün çox doğmadır. Sevinirəm ki, onun qoyduğu ənənələr bu gün də yaşadılır. Şadam ki, kollecin məzunları çox böyük işlər görürlər. Bu görüşə görə kollecin kollektivinə və onun rəhbəri, dostum Nazim Kazımova təşəkkür edirəm. Əlli il öncə mən buranın məzunu olmuşam. O vaxtlar kollecin binası keçmiş Maksim Qorki küçəsində yerləşirdi. Hər dəfə həmin binanın şəkillərinə baxanda xatirələrimdə həmin illər bir daha canlanır. Dahi Üzeyir Hacıbəyli də o binada çalışıb. Həmin texnikumda musiqiyə böyük sevgi ilə oxuduq və bu gün də onun ənənələrinə sadiqik. Azərbaycan musiqisi çox zəngindir. Təkcə Üzeyir bəyin gördüyü işlər buna nümunədir. Bura gələrkən Bakı Musiqi Akademiyasının yanından keçdim, bəstəkarın heykəlinin önündə dayanıb baş əydim. Azərbaycanın zəngin musiqi mədəniyyəti bu gün də inkişaf edir, gənc nəslə öyrədilir.”

Ürəyi musiqi sevdası ilə dolu olan bəstəkar bu gün də yazır, yaradır, öz üzərində işləyir. Hər yeni günə musiqi ilə başlayır: “Hər gün öz üzərimdə çalışıram. Pianonun qarşısına keçib ifa edirəm. Düşünürəm ki, insan öz sənətini sevməli, ona sadiq olmalıdır. Bugünkü görüşdə kollecin gözəl müəllim heyətini gördüm. Əsərlərimi ifa etdim. Bu görüş mənim xatirimdə uzun müddət xoş xatirələrlə yadda qalacaq.”

Bəstəkarın piano arxasında vaxtilə tələbə olduğu kollecdə əsərlərini ifa etməsi tamaşaçılarda xoş və lirik duyğular yaşatdı.

Sonda kollec kollektivi adından bəstəkara hədiyyə və gül dəstəsi təqdim edildi. Faiq Sücəddinov vurğuladı ki, oktyabrın 16-da Azərbaycan Milli Konservatoriyasında da konserti nəzərdə tutulub.

Qeyd edək ki, 1947-ci il təvəllüdlü bəstəkarın əsərləri arasında piano və simfonik orkestr üçün konsert, simli kvartet, piano və kamera orkestri üçün konsert, kamera orkestri üçün skertso, xor və simfonik orkestr üçün “Atatürk” odası, müxtəlif tərkibli ansambllar üçün caz kompozisiyaları var. Bəstəkar, həmçinin bir sıra sevilən mahnıların müəllifi kimi də tanınır.

***Əfsanə BAYRAMQIZI,***
***(Foto) Elşən AĞALARINDIR,***
***“Xalq qəzeti”***